

**Şəkərov Xəyal İman oğlu**

Xəyal İman oğlu Şəkərov 1998-ci il sentyabrın 1-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. 2005-2016-cı illərdə Məstan Əliyev adına Əsrik Cırdaxan kənd tam orta məktəbində təhsil alıb. Xəyal Şəkərov orta məktəbdə oxuyarkən idmanla məşğul olub. Müxtəlif səviyyəli yarışlarda fəxri yerlər qazanıb, qaydasız döyüş üzrə respublika birinciliyinin qalibi olub.

Xəyal Şəkərov 2016-cı ildə həqiqi hərbi xidmətə gedib. 2018-ci ilin aprelində tərxis olunduqdan sonra həmin ilin sentyabr ayından gizirlik kursu keçib və noyabr ayından Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat bölməsində müddətdən artıq hərbi xidmətə başlayıb.

Azərbaycan Ordusunun giziri olan Xəyal Şəkərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Xəyal Şəkərov oktyabrın 13-də Hadrut döyüşləri zamanı şəhid olub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə gizir Şəkərov Xəyal İman oğlu “Azərbaycan Bayrağı” ordeni və "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.